# İrakli KOBAXİDZE: "Gürcüstan Azərbaycan, Ermənistan, region və dünya üçün bu tarixi anı alqışlayır"

**"Mən ABŞ və Azərbaycan prezidentlərini və Ermənistanın Baş nazirini tarixi sülh sazişinin əldə edilməsi və regionda sabitliyin, iqtisadi inkişafın yeni dövrünün başlaması münasibətilə təbrik edirəm. Gürcüstan həmişə regionda sülhün və əməkdaşlığın tərəfdarı olub və gələcəkdə də onlara güclü dəstək verəcək".**

AZƏRTAC xəbər verir ki, bu barədə Gürcüstanın Baş naziri İrakli Kobaxidze "X" sosial şəbəkə hesabında yazıb.



Onun sözlərinə görə, Gürcüstan Ermənistan, Azərbaycan, region və dünya üçün bu tarixi anı alqışlayır.

Azərbaycan. - 2025.- 10 avqust (№166).- S.7.